# *BƏRDƏ:* İtirilmiş şöhrət geri qaytarılır

## Söhbət pambıqçılıqda əldə edilmiş dönüşdən, builki məhsul yığımından gedir



***❐ Bərəkətli Qarabağ torpağı… Bol su, əlverişli coğrafi-iqlim şəraiti, bir də bu çöllərin əsl sahibi olan sadə, səmimi, əməksevər insanlar. Bolluq, bərəkət də elə buradan – bu ülfət və vəhdətdən qaynaqlanır.***

Bu ilin barlı-bərəkətli payızı Qarabağ çöllərinə daha böyük canlanma və coşqunluq gətirib. Bu sözləri deyərkən, hər şeydən əvvəl, "ağ qızıl" tarlalarını, məhsul yığımını nəzərdə tuturuq. Məsələ burasındadır ki, bu il pambıq əkini sahələri yüz hektarlarla genişlənib. Biz ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından olan Bərdənin pambıq tarlalarını gəzərkən bunun bir daha şahidi olduq.

Müsahiblərimdən birinin dediyi kimi, builki pambıq yığımına, bəlkə də, heç yerdə Bərdədə olduğu kimi, böyük həvəs və maraqla başlanmayıb. Etiraf edək ki, bu





həqiqət, şübhəsiz, ötən əsrin 70-80-ci illərini yada salır. Bəli, ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi həmin illər Bərdə nəinki Azərbaycanın, eləcə də keçmiş İttifaqın ən böyük pambıqçılıq rayonu idi. Yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, 1981-ci ildə Bərdədə 125 min ton "ağ qızıl" istehsal olunmuşdu.

Təəssüf ki, sonrakı illərdə bu qiymətli strateji məhsulun istehsalını stimullaşdıran amillər heçə endi, əkinlər ildən-ilə azaldı. Pambıqçılığa maraq və həvəs də, təbii olaraq, itdi. Hər şeydən əvvəl, ona görə ki, kənd adamı gərgin zəhmət hesabına yığıb təhvil verdiyi məhsulun pulunu ala bilmirdi. Nəticədə, nəinki Bərdə rayonunda, bütövlükdə, respublikada pambıq istehsalı minimum səviyyəyə düşdü.

Nə yaxşı ki, nəhayət, bu vəziyyətə son qoyuldu, ölkəmizdə pambıqçılığın tənəzzülü uzun sürmədi. Prezident İlham Əliyev qeyri-neft sektorunun, ilk növbədə, kənd təsərrüfatının yüksək gəlirli sahəsi olan pambıqçılığın sürətli inkişafını gündəmə gətirdi, bu yöndə aqrar-sənaye komplekslərinin yaradılması vacib və təxirəsalınmaz vəzifə kimi qarşıya qoydu. Sabirabadda pambıqçılığın inkişafı məsələlərinə həsr edilmiş müşavirədə isə sahənin inkişafında dönüş yaratmaq üçün zəruri məsələlər geniş müzakirə olundu, konkret vəzifələr müəyyənləşdirildi.

Biz Bərdənin pambıq tarlalarında yığımın qızğın çağında olduq. Əvvəlcə Ərəblər kəndinə gəldik. Dedilər ki, rayon üzrə ən yüksək məhsuldarlıq əldə edən fermerlərdən birinin – **Nazim Ağayevin əkin sahələri bu ərazidədir.** Bizi ağ örpəyə bürünmüş tarlanın qarşısında təcrübəli pambıqçının özü qarşıladı. Təbəssümlə, bir qədər də zarafatla dedi:

– Bir vaxtlar pambıq yığımının gedişini qəzet və jurnallar hər gün geniş işıqlandırırdı, radio və televiziya müntəzəm verilişlər verirdi. İndi yığımın sonuna az qalıb. Gələn ilk jurnalist sizsiniz. Bu sözlərimdən inciməyin. Axı belə yanaşmanın adamların əhval-ruhiyyəsinə təsiri var. Gec də olsa, xoş gəlmisiniz. Gördüyünüz kimi, tarlalarda hələ məhsul çoxdur. İndiyədək 60 hektarın məhsulunu toplamışıq. Məhsuldarlıq gözlənildiyindən yüksəkdir– hər hektardan 44 sentner pambıq yığmışıq. Ümumiyyətlə, biz bu il 93 hektar sahədə pambıq əkmişik. Gələn il bu rəqəmi, ən azı, iki dəfə artırmağı qərara almışıq. Yığılan məhsulun pulu elə həmin gün ödənilir.

Müsahibim bir məsələyə də toxundu. Dedi ki, ötən əsrin 70-80-ci illərində bizim bu kənd də daxil olan kolxozda 10 min ton "ağ qızıl" istehsal olunurdu. Təsərrüfatın özünün emal müəssisəsi də var idi. Demək istəyirəm ki, bu yerin adamlarında tarixən pambıqçılığa böyük həvəs və maraq var. Bərdəlilər, necə deyərlər, pambığın dilini yaxşı bilirlər. Heç də təsadüfi deyil ki, dövlət başçısının pambıqçılığın inkişafına verdiyi ciddi önəmdən, Sabirabad müşavirəsindən sonra bizim də bu sahəyə olan marağımız birə- beş artıb.

**Yüksək məhsuldarlığa nail olan fermerlərdən biri də Elman Kərimovdur.** Öyrəndik ki, o bu il 85 hektarda pambıq yetişdirib. Hələlik yalnız birinci üz pambıq yığılıb. Məhsuldarlıq isə hər hektardan 40 sentnerdir. Tarlaların hazırkı vəziyyəti göstərir ki, pambıqçılar nəzərdə tutduqları 370 ton məhsulu toplaya biləcəklər. Bununla bərabər, fermer bir qədər narahat görünürdü:

– Son günlər havaların birdən-birə soyuması, şıdırğı yağışlar işimizi bir qədər çətinləşdirib. Belə havada sahələrə girmək mümkün deyil. Məhsul isə boldur. Havalar imkan verən kimi pambıq son qozasınadək yığılıb təhvil veriləcək. Təxmini hesablamalara görə, hər hektarın məhsuldarlığı 45 sentneri ötəcək. Bu isə o deməkdir ki, pambıqçılarımızın təknəsində çörəyi, xərcləməyə pulu olacaq. Onu da bildirim ki, yığılan məhsulun pulunun gündəlik ödənilməsi adamların sahənin inkişafına inam və marağını xeyli artırıb. Ona görə də qərara alıblar ki, gələn il pambıq əkinlərini artırsınlar.

Pambıqyığan maşınların sürücüləri ilə də tanış oluruq. Yuri Əliyev, Rafiq Abdullayev kimi bacarıqlı mexanizatorlar bu mövsümdə pambıqçıların ən yaxın köməkçiləri olublar. Öyrəndik ki, Yuri Əliyev indiyə kimi 150 hektarın məhsulunu yığıb. Bu isə 480 ton "ağ qızıl" deməkdir. Ancaq qabaqcıl mexanik bunu heç də son hədd hesab etmir. O, bu rəqəmi 2 dəfə artırmaq niyyətindədir. Bunun üçün real imkanlar da var. Belə ki, sahələrdə hələ pambıq çoxdur. Dərmanlama, yarpaq tökümü vaxtında aparıldığından son günlərdə yerdə qalan qozalar da açılıb. Havalar imkan verən kimi məhsul yığımı sürətlə davam edəcək.

Bərdə rayonunda pambıq əkini, becərilməsi və qəbulu ilə "CTS-Aqro" MMC və "MKT" MMC şirkətləri məşğul olur. **Söhbət zamanı "CTS-Aqro" MMC-nin direktoru Azər Vəliyev bildirdi:**

– Bu il Bərdə rayonunda 226 fermerlə müqavilə bağlamışıq. İstər səpin, istər becərmə, istərsə də yığım və qəbulla əlaqədar heç bir çətinliyimiz olmayıb. Fermərlərlə apardığımız işlər müqavilə şərtləri əsasında uğurla davam edir. Yığım pulları gecikdirilmədən ödənilir. Maşın-mexanizm sarıdan da çətinlik yoxdur. Havaların son günlər yağışlı keçməsi bizi heç də ruhdan salmır, əlimizi işdən soyutmur. İndi hansı fermerin, kənd adamının sahəsinə yolunuz düşsə, görərsiniz ki, hələ məhsul çoxdur. Biz bu sərvəti birgə zəhmət hesabına hasilə gətirmişik. Ona görə də havalar imkan verən kimi yığımı davam etdirəcəyik.

Onu da öyrəndik ki, hər iki şirkətdə builki pambığın qəbulu ilə yanaşı, gələn ilin məhsulu üçün də indidən hazırlıq işləri görülür. Belə ki, fermerlərlə, sahibkarlarla müvafiq söhbətlər, məsləhətləşmələr aparılır, yeni sahələr əkinə hazırlanır. Bir sözlə, gələn il üçün nəzərdə tutulmuş planlar böyükdür, kənd adamları yaxın keçmişdə Azərbaycan kəndinin şöhrətinə çevrilmiş pambıqçılığın dirçəldilməsi ilə bağlı ölkə Prezidentinin qarşıya qoyduğu mühüm və təxirəsalınmaz vəzifələrin icrasına həvəslə qoşulublar. Bunu yerlərdən hər iki şirkətə daxil olan müraciətlərin sayı da sübut edir.

Biz günün sonunda pambıq yığımı ilə əlaqədar Bərdə Rayon İcra Hakimiyyəti nəzdində yaradılmış qərargaha gəldik. Məhsul yığımının taleyi xeyli dərəcədə burada həll olunur. Ona görə ki, sifarişçi və istehsalçılarla aparılan gündəlik iş burada nizamlanır. Meydana çıxan çətinliklər dərhal aradan qaldırılır, nəticələr ümumiləşdirilir, sabahkı vəzifələr müəyyənləşdirilir. İşin bu cür çevik və operativ təşkili isə imkan və səyləri birləşdirməyə xidmət edir, intizam və tələbkarlığı artırır.

**Operativ qərargahın rəhbəri– rayon icra hakimiyyəti başçısının müavini İlham Məmmədov sahələrdən yenicə qayıtmışdı.** Nigaran və narahat görünürdü:

– Tarlalara həyəcansız baxmaq mümkün deyil – məhsul boldur. Sahələrin çoxunda yalnız birinci üz yığılıb. Əgər havalar imkan versəydi, yağışlar olmasaydı, sözsüz ki, indi məhsul yığımını başa çatdırmışdıq. Bu gün əksər kəndlərdə olduq, fermerlərlə, kənd adamları ilə görüşüb söhbətlər etdik, pambıq əkini sahələrinə baş çəkdik. Hamı səbirsizliklə havaların açılmasını gözləyir. Çətinlik bir də ondadır ki, biz bu il ümumi məhsulun 90 faizini maşınla toplamağı planlaşdırmışıq. Maşın-mexanizm də kifayət qədərdir. Ancaq maşınla yığımın sürət və keyfiyyəti üçün, ilk növbədə, sahələr tam hazır olmalı, yağış ara verməlidir.

İlk günlər yığımın sürəti bizi qane edirdi. Hər gün rayon üzrə 4-5 faiz məhsul tədarük edilirdi. İndiyə kimi, 3500 tondan çox məhsul toplanıb. Hədəfimiz isə belədir: 7500 ton "ağ qızıl" yığmaq. Heç şübhəsiz, havalar imkan verən kimi biz vədimizə əməl edəcəyik.

Qarşıdakı illər üçün Bərdədə geniş planlar işlənib hazırlanır, imkan və ehtiyat mənbələri araşdırılır, konkret vəzifələr müəyyənləşdirilir. Mütəxəssislərin qeyd etdiyi kimi, bunun üçün rayonda hər cür şərait var: işçi qüvvəsi də, torpaq sahəsi də, adamların həvəs və marağı da. İndi əsas məsələ işin düzgün təşkilindən, bütün imkan və səyləri birləşdirməkdən ibarətdir.

2017-ci ildə rayon üzrə pambıq əkini sahələrini ən azı 8500 hektara çatdırmaq! Ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafı məsələlərinə həsr edilmiş müşavirədən sonra Bərdə pambıqçılarının qənaəti belədir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***